**Fərdi məlumatların işlənilməsi üzrə Razılıq**

Mən, fərdi məlumatların subyekti olan ______________________________
Fərdi məlumatların işlənilməsi üzrə Razılıq ərizəsi ilə (bundan sonra – Razılıq) “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyəti (bundan sonra – Cəmiyyət) (VÖEN: 9900038501) tərəfindən mənə aid fərdi məlumatlar üzərində müvafiq əməliyyatların (fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsi) aparılmasına sərbəst, könüllü olaraq, öz iradəmə uyğun şəkildə aşağıdakı şərtlərlə razılıq (bundan sonra – razılıq) verirəm:

1. Cəmiyyət tərəfindən mənə aid aşağıdakı məlumatlar toplanıla və işlənilə bilər:
   1.1. ad, soyad, ata adı;
   1.2. mobil telefon nömrəsi;
   1.3. ev telefonu nömrəsi;
   1.4. elektron poçt ünvanı;
   1.5. ünvan məlumatları (şəhər/rayon, küçə/məhəllə);
   1.6. şəxsiyyət vəsiqəsi məlumatları.

2. Mənə aid yuxarıda qeyd edilən fərdi məlumatlar aşağıdakı məqsədlərlə işlənilə bilər:
   2.1. aylıq abunə haqqı üzrə məlumatların (borc bildirişi) göndərilməsi;
   2.2. xidmətin aktivləşdirilməsi üçün abunəçilərin fərdi identifikasiya məlumatlarının eyniləşdirilməsi.

3. Mənə aid fərdi məlumatlar yalnız aşağıdakı hallarda ötürülən məlumatların məxfiliyini qorumaq şərtilə üçüncü şəxslərə ötürülə bilər:
   3.1. xidmətlərin göstərilməsi üçün texniki tərəfdaşlara (IT xidmət təminatçıları, hosting, çağrı mərkəzi və texniki dəstək, SMS və elektron poçt xidməti təminatçıları və s.);
   3.2. qanunvericiliklə nəzərdə tutulan hallarda səlahiyyətli dövlət orqanlarına.

Verilmiş Razılığın tərəfimdən istənilən zaman geri çağırılması hüququnu özümdə saxlayıram.